


*Daxili İşlər Nazirliyində işləmək, onun əməkdaşı, zabiti olmaq bir tərəfdən şərəflidir, ikinci tərəfdən də çox məsuliyyətli, əzabəziyyətlidir.*

Heydər Əliyev

# MÜBARİZ KEŞİKDƏ

23 iyul 2020-ci il
Cümə axşamı

№ 25 (3490)

www.mk.mia.gov.az

- polisazerbaycan

1933-cü ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI


## Birinci vitse-prezident xalqa müraciət edib

“Hər birimizin borcu Azərbaycanın mövqeyini müdafiə etməkdir. Nəinki döyüş meydanında, həm də kompüter qarşısında”

Birinci vitse-prezident müraciətində son günlər baş verən hadisələrin hər birimizi narahat etdiyini bildirib. Düşmən təxribatı nəticəsində şəhid olan hərbiçilərimizin ailələrinə başsağlığı verən birinci xanım Tanrıdan yaralı əsgərlərimizin tezliklə sağalmasını diləyib.

Əsl Vətəndaş mövqeyi nümayiş etdirən hər kəsə minnətdarlığını ifadə edən vitse-prezident qeyd edib ki, artıq uzun illərdir yaşadığımız qarşıdurma şəraiti bilavasitə hərbi əməliyyatlar bölgəsini deyil, həm də informasiya məkanını əhatə edir. Sosial şəbəkələr dövründə informasiya müharibələrinin miqyası, onların hadisələrin gedişatına təsiri qarşıdurmanın nəticəsinə təsir edən olduqca mühüm amilə çevrilirlər.

..."Müasir informasiya platformaları düşmən qüvvələr, bədxah insanlar, bəzən sadəcə paxıl və qərəzli dairələr tərəfindən “feyk”lərin, saxta, təxribat xarakterli materialların yayılması üçün vicdansızcasına istifadə olunur. Məqsəd – çaxnaşma, nifaq salmaq və daxili “cəbhə” yaratmaq, düşkünlük və məğlubiyyət əhval-ruhiyyəsini artırmaqdır.

Saxta profillərdən və birdəfəlik işlətmə üçün nəzərdə tutulan telefon nömrələrindən tutmuş istifadəçilərin görmə, eşitmə, emosional qavrayışına psixoloji təsir üsullarından istifadəyədək geniş alətlər arsenalı işə düşür. Ermənistanın işğalçılıq siyasətini dəstəkləyən qüvvələr öz məqsədlərini güdərək “müharibədə bütün vasitələr yaxşıdır” prinsipi ilə hərəkət edirlər.

Çox sevindirici haldır ki, Azərbaycanın internet istifadəçilərinin əksəriyyəti təxribata uymur, yalan və böhtanı ifşa edir, ağı qaradan seçməyi bacarır və münaqişənin kökləri haqda həqiqətlərdən bəhs edir. Axı bizim əsas vəzifələrimizdən biri ədaləti tələb edən haqq səsimizi dünya ictimaiyyətinə çatdırmaqdır"...

Birinci vitse-prezident sosial şəbəkələrdə nümayiş etdirilən qarşılıqlı dəstəyə, səbrə, həmrəyliyə, təmkinə və özünənəzarətə görə xalqımıza minnətdarlığını bildirib, sayıq olmağımızı, təxribata uymamağımızı, Azərbaycanın haqq işini nəinki döyüş meydanında, eləcə də informasiya məkanında müdafiə etməyin vacibliyini vurğulayıb.

**İyulun 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakının Sabunçu rayonunda “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin yeni tikilən “Böyükşor” yarımstansiyasının açılışında iştirak ediblər.**

## 120 ölkədən Azərbaycana dəstək

BMT-dən sonra dünyanın ən böyük siyasi təşkilatı olan Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan sərhədində hərbi təxribatı ilə bağlı qəbul etdiyi kommünikedə Azərbaycanın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünə birmənalı dəstəyini bildirərək, respublikamızın öz ərazi bütövlüyünü bərpa etmək məqsədilə göstərdiyi səylərlə həmrəy olduqlarını ifadə ediblər. Beləliklə, QH-nin 120 üzv dövləti tərəfindən Ermənistan silahlı qüvvələrinin iki ölkə sərhədində son hərbi təxribatı və Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli və beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan mövqe ortaya qoyulub.

# ŞƏHİD AİLƏLƏRİ, MÜHARİBƏ ƏLİLLƏRİ DÖVLƏTİN QAYĞISI İLƏ ƏHATƏ OLUNUB

## Prezident İlham Əliyev: “Dövlət büdcəsinin böyük hissəsi sosial məsələlərin həllinə xərclənir”

İyulun 21-də Bakının Xətai rayonunda şəhid ailələrinə, müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim olunması mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva təqdimat mərasimində iştirak ediblər.



Məlumat verilib ki, dövlət tərəfindən bu binada şəhid ailələrinə və ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi olan şəxslərə 62 mənzil verilib. Bu mənzillərin 42-si Qarabağ müharibəsi əlilləri, 20-si isə şəhid ailələri üçün nəzərdə tutulub.

Qeyd olunub ki, indiyədək şəhid ailələrinə və müharibə əlillərinə 8018 mənzil və fərdi ev təqdim olunub. Bu qəbildən olan vətəndaşlarımız təkcə 2019-cu ildə 634 mənzil, 300 fərdi evlə təmin ediliblər. 2020-ci ildə 700 mənzil və 800 fərdi evin verilməsi nəzərdə tutulub. İlin əvvəlindən indiyədək 430 mənzil təqdim olunub.



Diqqətə çatdırılıb ki, 2018-ci ildə 265, 2019-cu ildə 600 müharibə əlili avtomobillə təmin olunub. Bu dəfə təqdim edilən 50 avtomobil də daxil olmaqla 2020-ci ildə bu qəbildən olan insanlara, ümumilikdə 150 avtomobil verilib. İlin sonunadək isə 400 müharibə əlilinin avtomobillə təmin olunması planlaşdırılır. Onu da deyək ki, təqdim olunan avtomobillər yerli istehsal olan “Khazar LX” avtomobilləridir.

Bu dəfə verilən 50 avtomobil də daxil olmaqla indiyədək müharibə əlillərinə 6900 avtomobil təqdim olunub.

Ümumilikdə, Azərbaycanda xüsusi kateqoriyadan olan şəxslər üçün güzəşt və imtiyazların ildən-ilə daha da çoxalması dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Şəhid ailələrinə və müharibə əlillərinə müavinət və təqaüdlər 2019-cu ilin aprelində təxminən 100 faiz artıb.

Bu ilin ilk 6 ayında müharibə əlillərinə 1435 reabilitasiya vasitəsi verilib. Hazırda bir çox şəhər və rayonda bərpa və uşaq bərpa mərkəzlərinin inşası və təmiri davam edir. İlin birinci yarısında 1, 2 və 3 saylı DOST mərkəzlərinə 61057 vətəndaş müraciət edib. Vətəndaş məmnunluğu isə 96 faizdir. Tezliklə Binəqədi, Abşeron, Sumqayıt, Quba və Bərdədə DOST mərkəzlərinin açılması nəzərdə tutulur.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva şəhid ailələrinin üzvləri və müharibə əlilləri ilə görüşüblər.

Dövlətimizin başçısı görüşdə çıxış edib.

***Azərbaycan Prezidenti İlham Əliyev iyulun 15-də Türkiyə Respublikasında baş vermiş 15 iyul dövlət çevrilişi cəhdinin növbəti ildönümü münasibətilə Prezident zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana başsağlığı teleqramı göndərib.***

***Dövlətimizin rəhbəri iyulun 15-də Azərbaycan və Ermənistanın dövlət sərhədində baş vermiş hadisələrə verdikləri obyektiv qiymətə görə Pakistan İslam Respublikasının Prezidenti zati-aliləri cənab Arif Alviyə, Özbəkistan Respublikasının Prezidenti zati-aliləri cənab Şavkat Mirziyoyevə, Qazaxıstan Respublikasının Prezidenti zati-aliləri cənab Kasım-Jomart Tokayevə, İslam Əməkdaşlıq Təşkilatının Baş katibi cənab Yusif bin Əhməd əl-Osayminə, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi cənab Bağdad Amreyevə minnətdarlıq məktubları ünvanlayıb.***

***İyulun 18-də Azərbaycan Prezidenti İlham Əliyev Polşa Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməsi münasibətilə zati-aliləri cənab Andjey Dudaya təbrik məktubu ünvanlayıb.***

***İyulun 18-də Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Şefik Caferoviç Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan sərhədinin Tovuz rayonu istiqamətində artilleriya hücumu nəticəsində həlak olanlarla əlaqədar Azərbaycan Prezidenti İlham Əliyevə başsağlığı teleqramı göndərib.***

***Ölkəmizin rəhbəri iyulun 20-də Azərbaycan Respublikasının Tovuz rayonunu Ermənistan Respublikası Silahlı Qüvvələrinin intensiv atəşə tutması nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.***

***İyulun 21-də ölkəmizin rəhbəri Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi, 1990-cı il 20 Yanvar hadisələri ilə əlaqədar, habelə Çernobıl AES-də qəza nəticələrinin aradan qaldırması ilə əlaqədar əlilliyi olan şəxslərin, İkinci Dünya müharibəsi əlillərinin və onlara bərabər tutulan şəxslərin xüsusi nəqliyyat almaq üçün tibbi göstərişlər üzrə avtomobillə təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında sərəncam imzalayıb.***

## Gənclərə böyük etimad



**İyulun 22-də Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov respublikanın şəhər və rayon polis orqanlarında vakant olan post-patrul xidmətinin polis nəfəri vəzifələrində xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib.**

Nazir ayrı-ayrılıqda hər bir gəncin zahiri görkəmi, fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi və dünyagörüşü ilə maraqlanıb.

Kütləvi informasiya vasitələrində əvvəlcədən verilmiş elana uyğun olaraq, Nazirliyə onlayn qaydada müraciət etmiş iddiaçılardan daha hazırlıqlı olan 150 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

Namizədlər qarşısında çıxış edən nazir daxili işlər orqanlarında xidmətə qəbulun şəffaflıq və aşkarlıq prinsipləri əsasında keçirildiyini vurğulayaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin hər bir ölkənin gələcəyinin, inkişafının geniş intellektual səviyyəli, müasir texnologiyaların sirlərinə bələd olan, vətənpərvər, milli-mənəvi dəyərlərə, dövlətçiliyə sadiq gənclərdən asılı olduğunu dəfələrlə vurğuladığını xatırladıb.

General-polkovnik Vilayət Eyvazov gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, hər zaman polis adını və şərəfini uca tutmalarını, bilik və bacarıqlarını, dünyagörüşlərini, təcrübələrini artırmalarını, öz üzərlərində səylə çalışmalarını, insan və vətəndaş hüquq və azadlıqlarına, onların müraciətlərinə xüsusi diqqət və həssaslıqla yanaşmalarını, bir sözlə, vətəndaş məmnunluğunun təmininə öz layiqli töhfələrini vermələrini tövsiyə edib.

# DAXİLİ İŞLƏR NAZİRLİYİNDƏ VİDEOKONFRANS FORMATINDA KOLLEGİYA İCLASI KEÇİRİLİB

İyulun 21-də Daxili İşlər Nazirliyində 2020-ci ilin birinci yarısında cinayətkarlıqla mübarizədə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmini sahəsində fəaliyyətin nəticələri və qarşıda duran vəzifələrə həsr olunmuş Kollegiya iclası keçirilib. Ölkədəki epidemik vəziyyətlə əlaqədar kollegiya videokonfrans formatında baş tutub.

Müşavirəni giriş sözü ilə açan nazir, general-polkovnik Vilayət Eyvazov daxili işlər orqanlarının və Daxili Qoşunların ötən 6 ayda böyük bir iş həcmini yerinə yetirdiyini və bir çox istiqamətlərdə müsbət nəticələr əldə etdiyini vurğulayıb. Xidməti fəaliyyətdə innovasiyaların tətbiqi üzrə həyata keçirilən tədbirlərlə “Karantin dövründə buraxılışların qeydiyyatı”, “Mobil Axtarış Portalı”, “Yoxlamaların vahid məlumat reyestri”, “Ezamiyyətlərin qeydiyyatı”, Polis Akademiyasında “Elektron imtahan” informasiya sistemlərinin yaradılaraq istimara verildiyini, eləcə də bir sıra infrastruktur yeniliklərinin həyata keçirildiyini nəzərə çatdırıb.

Daxili İşlər naziri ölkədə tətbiq olunmuş xüsusi karantin rejiminə riayət olunmasına nəzarət tədbirləri çərçivəsində yoluxanların karantinə yerləşdirildiyi 35 şəhər və rayon üzrə 62 xəstəxananın və digər obyektlərin sutkalıq mühafizəsinin davam etdirildiyini bildirib. Həmçinin, xüsusi karantin rejiminin tələblərini pozan 195 minə yaxın şəxs haqqında inzibati məsuliyyət tədbirlərinin görüldüyünü, onlardan 788 nəfərin həbs edildiyini, 193 min 560 nəfərin, o cümlədən tibbi maskadan istifadə etmədiklərinə görə 17 min 820 nəfərin cərimələndiyini qeyd edib.



General-polkovnik V.Eyvazov bildirib ki, Dövlət Başçısı cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən daxili işlər orqanlarının və Daxili Qoşunların fəaliyyəti həmişə yüksək qiymətləndirilib. O, polisin peşə bayramı ərəfəsində 26 əməkdaşın dövlət mükafatına layiq görüldüyünü, rəhbər vəzifəli 3 şəxsə ali xüsusi rütbələr verildiyini məmnunluqla xatırladıb.

Sonra hesabat məruzəsi ilə çıxış etmək üçün söz Daxili İşlər nazirinin birinci müavini, polis general-leytenantı Seyfulla Əzimova verilib. O, əməliyyat-axtarış və istintaq fəaliyyətinin subyekti olan dövlət qurumları üzrə 13.310 cinayətin qeydə alındığını, bu cinayətlərin 94,7 faizinin daxili işlər və prokurorluq orqanları tərəfindən istintaqı və təhqiqatı aparılan hüquqazidd əməllər olmaqla onların 87,2 faizinin böyük ictimai təhlükə törətməyən və az ağır növlər təşkil etdiyini bildirib.

Məruzəçi qeyd edib ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə bir çox cinayətlərin sayında azalma qeydə alınıb. Belə ki, qəsdən adam öldürmələr 6, adam öldürməyə cəhdlər 16,3, qəsdən sağlamlığa az ağır zərər vurmalar 4,2, mülkiyyət əleyhinə olan cinayətlər 4,8, xuliqanlıqlar 27, yetkinlik yaşına çatmayanların cinayətləri 19,6, ailə münaqişəsi zəminində hüquqpozmalar 6,2, odlu silahın tətbiqi ilə baş verən cinayətlər 33,3, ictimai yerlərdə törədilən cinayətlər 21,5, yol-nəqliyyat hadisələri 7,5, qəzalarda ölənlərin sayı 5, xəsarət alanların sayı 6 faiz azalıb. Prokurorluq orqanları ilə birgə keçmiş illərdən bağlı qalmış 241 cinayətin açılması, axtarışda olan 1821 şəxsin tutulması da məhz hesabat dövründə təmin edilib.

Polis general-leytenantı S.Əzimov mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə həyata keçirilmiş tədbirlərlə 438, o cümlədən ağır və xüsusilə ağır cinayətlər törətmiş 103 kriminal qrupun zərərsizləşdirildiyini, qanunsuz olaraq odlu silah saxlayan və daşıyan 86 nəfərin cinayət məsuliyyətinə cəlb edildiyini, qeyri-leqal dövriyyədən ötən ilin 6 ayı ilə müqayisədə 256,5 kiloqram çox və ya 1 ton 67 kiloqram narkotik vasitə çıxarıldığını, 91 tona yaxın narkotik xassəli bitkinin aşkarlanaraq məhv edildiyini Kollegiya iştirakçılarının nəzərinə çatdırıb.

Məruzə ətrafında çıxış edən Baş İctimai Təhlükəsizlik İdarəsinin rəisi, polis general-mayoru Oqtay Kərimov, Bakı Şəhər Baş Polis İdarəsinin rəis müavini, polis general-mayoru Teymur Hacıyev, Gəncə Şəhər Baş Polis İdarəsinin rəisi, polis polkovniki Əkbər İsmayılov, Bakı Şəhər Baş Polis İdarəsi İctimai Təhlükəsizlik İdarəsinin rəisi, polis polkovniki Sərdar Səfərov və digərləri hesabat dövründə görülmüş işlərdən, əldə olunmuş nəticələrdən, eyni zamanda, fəaliyyətdə olan nöqsan və çatışmazlıqların aradan qaldırılması ilə bağlı planlaşdırılan konkret tədbirlər barədə məruzə ediblər.

İclasa yekun vuran Daxili İşlər naziri Vilayət Eyvazov hesabat dövründə əməliyyat-xidməti fəaliyyətdə əldə edilmiş müsbət nəticələrlə bərabər, ayrı-ayrı ərazi polis orqanlarında ümumi işə mənfi təsir göstərən halların mövcudluğunu nəzərə çatdıraraq müşavirə iştirakçılarının diqqətini onların hərtərəfli təhlilinə, aradan qaldırılması yollarına və qarşıda duran vəzifələrə yönəldərək konkret tapşırıq və tövsiyələrini verib.

Nazir cinayətkarlığa qarşı mübarizədə, asayişin və daxili təhlükəsizliyin qorunmasında əldə edilmiş müsbət nəticələrin inkişaf etdirilməsini, şəxsi heyətin daha böyük əzmlə çalışmasını və əməkdaşların peşəkarlığının yüksəldilməsini hər bir polis orqanının rəhbərindən tələb edib.





General-polkovnik Vilayət Eyvazov daxili işlər orqanlarına göstərdiyi ali diqqətə, verdiyi böyük dəyərə və etimadına görə cənab Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya bütün şəxsi heyət adından dərin minnətdarlığını bildirib və onları əmin edib ki, respublikada ictimai asayişin mühafizəsi, qanunçuluğun və hüquq qaydasının qorunması sahəsində vəzifələr bundan sonra da layiqincə və tam yerinə yetiriləcəkdir.

# Hədəf polis olunca

**Vətəndaşların müraciətlərinə həssas yanaşılması, onların üzləşdikləri problemlərin operativ şəkildə həll edilməsi DİN rəhbərliyinin daxili işlər orqanları əməkdaşları qarşısında qoyduğu ən ümdə tələbdir.**

Düşmən dəyirmanına su tökənlər, gəzməyə yox, Vətəni söyməyə, xalqı aşağılamağa qərib ölkə axtaranlar sabitliyimizin sərhəddinə nə paytaxtımızda, nə də ki, bölgələrdə bir addım belə yaxın düşə bilmirlər. Çünki təməli Azərbaycançılıq ideologiyası ilə qoyulmuş ümummilli məramımızın qayəsi asayişi, sabitliyi hamılıqla qorumaqdır.

Polis-xalq həmrəyliyi bəzi gücləri çox narahat edir. Bu, başadüşüləndir. Çünki onların çirkin əməllərinin, asayişi, sabitliyi pozma cəhdlərinin qarşısını polis anındaca alır. Və hər kəsə məlumdur ki, sosial şəbəkələrdə Azərbaycan Polisinə hücumlar “sapı özümüzdən” olanlara sərhədlərimizdən o üzdə verilən təlimatın nəticəsidir.

***Hədəf polis olunca, Azərbaycan xalqı buna cavabsız qalmır, qalmayacaq da. Varlığını, hər saatını, hər anını Vətənə, xalqa həsr eyləyənləri şər, böhtan söyləməklə gözdən salmaq mümkün deyil. Azərbaycan xalqı polisinə arxadır, ona güvənir və etibar edir.***

Polis xalqın malının, əmlakının, əmin-amanlığının gözətçisi olmaqla yanaşı, dövlətin təməli olan ədaləti, insan hüquq və azadlıqlarını da qorumaq üçün cinayətkar ünsürlərlə, oğru



qanunlarını həyat tərzinə çevirənlərlə dünən olduğu kimi, bu gün də ölüm-dirim mübarizəsindədir.

Yeri gəlmişkən, Tovuzda baş verən erməni təxribatını bütün dünya izləyir və qınayır. Hər gün bu qədim yurd yerimizin ağır artilleriyadan, iri çaplı silahlardan necə atəşə tutulmasını özündə əks etdirən videosüjetdə yaşlı bir qadının jurnalistin “Burda qorxmursunuzmu” sualına: “Ölöm qavağında, əgər mənim əsgərim, polisim düşmənlə döyüşörsə, bə mən həncəri oları qoyuf çıxem, bu yurd yiyəsizmi qalsın” deməsi bizi heyrətə gətirdi. Qürurdan gözlərimiz doldu...

Bir daha əmin olduq ki, düşmənin hücumunun qarşısını alan, onun canlı qüv-



vəsini məhv edən, döyüş texnikasını sıradan çıxaran əsgərlərimizin ruh yüksəkliyinin bir səbəbi də ona arxa-dayaq olan, vaxtilə Vətəni qorumaq üçün qanlı-qadalı döyüş yolu keşmiş Azərbaycan Polisinin asayişin keşiyində qətiyyətlə durmasıdır. Sərhəddimiz də, sabitliyimiz də əmin əllərdədir.

Bir neçə gün öncə Azərbaycan əsgərinə dəstək yürüşündə xalqı polisdən, polisi xalqdan ayırmaq istəyənlərə bu Vətə nə, bu torpağa və birliyimizə uzanan əlləri kəsərik mesajını birlikdə verdik.

Bu yurdu özünə Vətən bilənə, bu torpağın hər qarışı uğrunda canını fəda edən əsgərinə, polisinə qucaq açana dost, xor baxana, onu aşağılayana isə qiyamətə qədər düşmənik.

Daxili İşlər Nazirliyinə və redaksiyamıza şəhid anasından, əsgər atasından, alimdən, şairdən, müəllimdən, əliqabarlı fəhlədən ünvanlanan məktublardan bu fikirləri oxumaq bizi çox sevindirir.

Hətta bəzi vətəndaşlarımız şahidi olduqları hadisələrin, polisin xilaskarlıq missiyasını necə yerinə yetirdiyinin şəklini də çəkib bizə göndərirlər.

***Bakı şəhər sakini Gülnarə Həsənovanın göndərdiyi şəkil və kiçik bir yazı həmin an onun hansı hissləri keçirməsinin bariz nümunəsidir.***

***“Yaşadığım ərazidə bir nəfərin halsız, özü də yaralı vəziyyətdə qalmasına biganə qala bilmədik. Təcili yardıma zəng vurmaq istəyirdik ki, xidmətdə olan polis əməkdaşları bizə yaxınlaşdılar. Yaralı şəxsə ilkin tibbi yardım göstərdilər. Sonra onu xəstəxanaya apardılar. Qəribə bir mənzərə idi. Polislər sanki ən əziz adamlarına kömək edirdilər. Məlum oldu ki, onlar Xətai Rayon Polis İdarəsinin əməkdaşlarıdır”.***

***“Anam içində sənədlər və əməliyyatı üçün 1100 manat olan pul kisəsini bazarda itirmişdi. O, kömək üçün polisə müraciət edib. Anamın adını, soyadını və yaşadığımız ünvanı qeyd edən polislər ona narahat olmamağı, pul kisəsinin tezliklə tapılacağını bildiriblər. Anamın əməliyyatı həmin puldan asılı idi. Əlimiz yerdən-göydən üzülmüşdü. Hardan, kimdən borc alacağımızı düşünərkən axşamüstü polis əməkdaşları evimizə gəldilər. Tapdıqları pul kisəsini və sənədləri təqdim etdilər. Allah Azərbaycan Polisini qorusun.”...***

***Sumqayıt şəhər sakini Tural Bağırov həmin hadisəni heç vaxt unutmayacağını da məktubunda qeyd edir.***

Redaksiyamıza göndərilən başqa bir şəkildə isə deyəsən, məktub müəllifi hisslərimizi sınağa çəkmək istəyib. Göndərdiyi şəklin altında sadəcə bu sözləri yazıb: “Ağacların ağrısı”...

*T.Hafiz*
*Ə.Ruhiyyə*

# Qan verək, yaşatmaq üçün



Talassemiya və hemofiliya, eləcə də leykoz xəstəliyindən əziyyət çəkən insanlar üçün qan ehtiyatının yaradılmasına dəstək məqsədilə Daşkəsən Rayon Mərkəzi Xəstəxanasında növbəti qanvermə aksiyası keçirilib.

"Qan ver, yaşat!" devizi altında həyata keçirilən bu nəcib və humanist aksiyaya yerli idarə və təşkilatlarla yanaşı, Rayon Polis Şöbəsinin əməkdaşları da könüllü şəkildə yüksək həvəslə qoşulublar.

Tədbirin humanitar əhəmiyyətini və xeyirxah bir əməl olduğunu diqqətə çatdıran **Şöbə rəisi, polis polkovnik-leytenantı Azay Ağayev** bildirib ki, əməkdaşlar aksiyada fəal şəkildə iştirak edərək qana ehtiyacı olanların köməyinə çatıblar.

Toplanan qan laboratoriya müayinəsindən keçirildikdən sonra Mərkəzi Qan Bankına təhvil veriləcək və irsi qan xəstəliklərindən əziyyət çəkən insanların müalicəsində istifadə olunacaq.

*Eşqin Qasımov*

# ƏMƏL ETMƏK VACİBDİR

**Vətəndaş görür və qiymətləndirir. Odur ki, bu şərtlər hər bir əməkdaşın həyat tərzinə çevrilməlidir.**

1. İctimai yerlərdə həmişə diqqət mərkəzində olan polis əməkdaşı davranışına və hərəkətlərinə xüsusi diqqət yetirməli, ucadan gülərək danışmamalı, lazımsız jestlərə yol verməməlidir.
2. Polis əməkdaşı avtobusda, qatarda və digər nəqliyyat növlərində, qadınlara, əlillərə və yaşlılara kömək etməlidir.
3. Polis əməkdaşı nəqliyyat vasitəsində hərəkət edərkən diqqətli və səliqəli olmalıdır.
4. Polis əməkdaşı üçün nəqliyyat vasitəsində qida qəbulu yolverilməzdir.
5. Polis əməkdaşı öz xidməti işini ucadan müzakirə etməməlidir.
6. Polis əməkdaşı ictimai nəqliyyat vasitəsində olarkən baş örtüyünü çıxarıb boş oturacağa qoymamalıdır.
7. Polis əməkdaşı nəqliyyat vasitəsində siqaret çəkməməli və başqalarını da bundan çəkindirməlidir.

# SƏNGƏRDƏ BİTƏN GENERAL ÖMRÜ

"Qarabağda doğulanların Qarabağsız ölməyini istəmirəm". Ziyarətinə gələndə şəklindən baxan gözlərindən bunu oxudum, cənab general. Təəssüf ki, haqqa qovuşandan sonra səni tanıdıq. Bildik ki, Azərbaycan generalı qışın soyuğunda, yayın istisində səngərdə əsgərinin yanındadır. Əsgər kazarması, səngəri evi, əsgər oğulları övladı bilənləri itirmək çox ağır olur. Sənin ölüm xəbərini eşidəndə Lələtəpədə dalğalanan Azərbaycan bayrağının necə hönkürdüyünü qulağı karlar eşitməz, o yerlərdə yuva quran quşların harayını ürəyi Vətən eşqi ilə döyünməyənlər bilməzlər. "Polad postu" səndən sonra polad oğullara əmanət qalsa da, onlar da sənsiz sındılar, yoxluğun onları da əydi, cənab general...

Sirr kimi saxladın sənə verilən evi şəhid ailəsinə hədiyyə etdiyini. Bəlkə də bu sirri sonradan bilənlər səni qınadılar da: "General da kirayədə yaşayarmı?"...

Sənin evin, ocağın, oğulun, qızın, doğman uğrunda canını verdiyin Azərbaycan idi...

Vətəni müdafiə edənlərin sırasında yerin boş qaldı. Özün də yaxşı bilirdin ki, bu müharibə "düymə", "koordinat" müharibəsidir. Hay bizimlə üz-üzə gəlməyə ürək eləməz heç vaxt, bilir ki, söykəndiyi divar yıxılsa, yerlə-yeksan olacağı an məsələsidir.

Polkovnik İlqar Mirzəyevlə məqsədiniz, məramınız bir idi. Qismətə bax, səngərdə də bir oldunuz, birlikdə vurdular sizi. Və indi haqq dərgahında da yanaşı uyuyursunuz.




Cənab general, polkovnikin anası onun tabutunu qucaqlayıb: "Komandir də yatarmı, ay oğul, dur",- deyib ağı dilində "irad" bildirirdi. Oğul itirən anaların yuxusu ərşə çəkilər. Ta son nəfəsinəcən gözlədiyinin gəlməyəcəyini bilə-bilə gözləyərlər…

Düşmən sərhədlərimizi pozub hücum edəndə hansı odla oynadığının fərqinə varmadı. Elə bildi ki, Aprel döyüşlərini dayandırmağı xahiş edənlər bu dəfə də köməyinə çatacaq. Paşinyan sahibindən aldığı tapşırığı erməni xisləti ilə həyata keçirmək istəsə də Azərbaycan əsgəri onun bütün planlarını pozdu.

Ölümünlə bu xalqı birləşdirib ayağa qaldırdın, cənab general. Qocası, cavanı, varlısı, kasıbı, iqtidarı, müxalifəti bir ağızdan Qarabağ, bir ağızdan Vətən dedi.

Yenə də döyüşlər gedir vuruldoğun torpaqlarda. Hər birimiz səfərbərik Vətən üçün, Sənin üçün. "Oğul balalar" dediyin əsgərlərin sənin komandirliyinlə düşməni darmadağın edir. Onlar səni indi daha yaxşı anlayırlar. Axı şəhidlər ölməzlər.

Qanınız yerdə qalmayacaq, qalsa bilin ki, Azərbaycan yer üzündən silinib, Azərbaycan xalqı məhv olub.

Hər səhər günəşi salamlamaq, yurdda od qalamaq və qanımıza susayan düşməni təklənsək belə məhv etmək bizim alın yazımızdır. Bu böyük millət tarix boyu necə sınaqlardan alnı açıq, üzü ağ çıxıb.

Qarşıda Qələbə var, generalım, Qələbə! Biz də sənin kimi Ali Baş Komandanın əmrinə hazırıq.

*Hafiz Təmirov,*
*polis polkovnik-leytenantı*

# İzi qalan, sözü qalan "Əkinçi"

Ana dilimizin üzünə qapıların çırpıldığı, ana dilində bir kəlmə deyənin başına min oyun açıldığı dönəmlərdə "Əkinçi" adlı bir qəzet ərsəyə gəldi. Avropada cild-cild kitabların, qəzetlərin çap olunmasına baxmayaraq, "Şeyx Nəsrullah"ların at oynatdığı müsəlman Şərqində quru sözdən göyərən, min əzab-əziyyətlə əlifbanı öyrənin şüarını "it boğuşduran"lara, "hamamda qeybət edənlər"ə çatdırmaq üçün zülümlə, ölümlə döş-döşə cismən zəif bədənində bir orduya qalib gələcək ruhunun gücünü göstərdi.



***Dünənlə bu gün müqayisəyə gəlməz. Bu gün Azərbaycanda ana xəttini təşkil edib.***

Həsən bəy Zərdabi dönəmindən fərqli olaraq bu gün qəzet, jurnal çap etmək üçün senzuralar, qadağalar yoxdur. Düzdür, əsrimiz internet əsri olsa da, qəzet, kitab oxuyanların sayı azalmayıb. Oxumaq demiş: Həsən bəy yaxşı vəkil olduğundan kəndlilər çox vaxt yardım üçün ona müraciət edirmişlər. Kəndlilər, yazdığı ərizə üçün zəhmət haqqı olaraq Həsən bəyə üç-dörd manat vermək istədikdə o, pulu almaz və deyərmiş:

-Bax, "Tərcüman" qəzeti üç manat tutur, sən pulu qəzetə ver, ya özün oxu, ya da ver mollanız məsciddə oxusun.

Kəndlilər Həsən bəyin məsləhətinə qulaq asıb "Tərcüman"a abunə yazılarlarmış...




gəlmək hünər istəyirdi. Qara komalardan aydınları, işıqlı beyinləri çıxarmaq, haqqı bulmaq üçün çalışmaq, oxumaq sözünü yüz dəfə, min dəfə anlatmaq və onların ümid yerinə çevrilməkdən ötrü nələr çəkmədi "Əkinçi". Millətin keçmişinə, gələcəyinə sahib çıxmaqla diri ikən ölü canlara çevrilənlərə üsyan edən Həsən bəy Zərdabi qanından da keçdi, canından da.



***Əslində, millətimizin söz azadlığı uğrunda ilk qurbanı "Əkinçi" oldu. Torpağımızı işğal edənlərə qarşı döyüşməkdə məqsəd şüurumuzun, dilimizin, dinimizin, mənliyimizin də işğal olunmasının qarşısını almaq idi.*** Ən ağır şərtlər altında müsəlman və türk oğlu olaraq qəzet çıxarmaq Həsən bəyin ***da onlarla qəzet, internet saytları fəaliyyət göstərir. Çap və elektron medianın inkişafına dövlət dəstəyinə gəlincə, son illər görülən işləri sadalamaq bir xeyli zaman alar. Mətbuatın dördüncü hakimiyyət kimi dayaqlarının möhkəmlənməsində, azad sözün meydanının genişlənməsində dövlət özü maraqlıdır. Çünki uğurlarla yanaşı, millətin və dövlətin qənimінə çevrilənləri ifşa etmək, "düzü-düz, əyrini-əyri yazmaq" jurnalistikanın bütün dövrlər***

Söz də dən kimidir, əgər münbit torpağa düşərsə, bol məhsul almaq, gələcəyə gün ağlamaq olar. Vay o gündən ki, nə əkməyə qoyalar, nə də biçməyə.

***1875-2020. Düz 145 il. İzi yola çevrilən, yolu isə böyük bir milləti aydın sabahlara çıxaran "Əkinçi"ni yaradan, ərsəyə gətirən Kişini hörmətlə anır, qələmimizi onun kimi haqq yazmağı öyrədirik ki, tarixdə bizdən sonra izimiz və sözümüz qalsın.***

*T.Hafiz*

# XALQIN DAYAĞINA ÇEVRİLƏN GÜC: POLİS

**Ordumuza dəstək olaraq milli birlik, həmrəylik nümayiş etdirən on minlərlə insan Bakıda küçələrə çıxmışdı. Mən də onların arasında idim. Diqqətimi çəkən bir sıra məqamlar oldu. Asayişi, təhlükəsizliyi qoruyan polis əməkdaşları da aksiya iştirakçılarına qoşularaq dövlətçilik, milli maraqlar naminə Ermənistanın işğalçılıq siyasətinə öz etirazlarını bildirirdilər.**




Bu, yürüşə xüsusu rəng qatmaqla yanaşı, həm də milli biriyi gücləndirirdi. Qeyd edim ki, polis əməkdaşları yürüş iştirakçılarına su paylamaqla yanaşı, eyni zamanda, bütün imkanlarını səfərbər edərək baş verə biləcək təxribatların qarşısını almaq üçün hərəkətdə idilər. On minlərlə insanın iştirak etdyi yürüşdə təxribat hər an ola bilərdi və təəssüf ki, bunun şahidi olduq...



"Artıq Azərbaycan xalqının səbri tükənib və düşməni yerinə oturtmağın məqamı gəlib. Düşmən həddini aşaraq Azərbaycanın dövlət sərhədlərinə hücum edib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev torpaqların azad olunması üçün bütün diplomatik vasitələrdən istifadə edir. O, beynəlxalq arenada Ermənistanın işğalçılıq siyasətinin real faktlarlar ortaya qoyub. Düşmən ölkə beynəlxalq hüquqa zidd olaraq torpaqları azad etmək istəmir. Ali Baş Komandan əmr verəcəyi təqdirdə illər öncə olduğu kimi biz də yenidən əlimizə silah götürüb döyüşəcəyik. Torpaqlarımızın azad olunmasının vaxtıdır. Bir addım olsun geri çəkilən deyilik. Polis də öz dövlətinin, xalqının yanındadır, Prezidentinə dayaqdır". Bu fikirləri də mənimlə addım-addım yürüyən polis zabitləri söylədilər.

Müharibə şəraitində yaşasaq da ulu öndərimizin ideyalarını gerçəkləşdirən möhtərəm Prezidentimizin qətiyyəti, idarəçilik bacarığı sayəsində Azərbaycan bu gün dünyanın sabitliyin hökm sürdüyü, asayişin etibarlı şəkildə qorunduğu ölkələr sırasındadır. Xalq və dövlət həmrəyliyi bütün tarixi dönəmlərdə bizi hər bir təhlükədən qoruyub. Dövrün çağırışlarına cavab vermək, ayaqlaşmaq iqtisadi və siyasi gücələ birbaşa bağlıdır. ***Bu gün Azərbaycan elə bir qüdrətli dövlətə çevrilib ki, onunla hədə və təhdid dilində danışmaq mümkün deyil. Ən əsası, bu gün Qafqaz deyiləndə ilk yada düşən, dilə gələn söz Azərbaycan olur. Vətənimiz dünyanı neft və qazla təmin edən dövlətlərin sırasında yer almaqla, həm də böyük güclərin siyasi tərəfdaşıdır. Bir sözlə, Azərbaycan hər zaman güvəniləcək bir imic formalaşdırıb. Bu güvənin təməl daşı isə sabitlik, milli birlik və həmrəylikdir.*** Təəssüf ki, bəzi güclər və içimizdəki satqınlar fürsət düşən kimi Azərbaycanı nüfuzdan salmağa çalışırlar. İlk hədəf isə hər zaman polis olur. Həqiqətdən uzaq, cılız və dayaz fikirlər söyləməklə polis və xalq birliyini sarsıtmaq istəyirlər. Bu isə heç vaxt mümkün olmayacaq.

Bu xalq onun uğrunda canından keçəni, onun dayağına çevriləni yaxşı tanıyır. Çünki xalq heç vaxt unutmur. Bilir ki, onu gözləyən təhlükənin, təxribatın qarşısını alan oğulların sırasında polis birinci olacaq.

Şübhəsiz ki, sabah müharibə başlayacağı təqdirdə polis ön cəbhədə əsgərin də güvəncinə çevriləcək. Bunu yaxın tariximiz sübut edib. Bu, bizim tariximizin şərəfli səhifəsidir.

*Elnur Eltürk,*
*Diaspor üzrə araşdırmaçı-ekspert*

# GEDƏK O YERLƏRƏ...

**Doğulduğu torpaqdan ayrı düşmək ən böyük faciədir. Əslində, deportasiya da soyqırımın ayrı bir formasıdır. Bunu bir millət olaraq zaman-zaman yaşamışıq...**

**Artıq neçə ildir ki, Qarabağımızdan ayrı düşmüşük. Kəlbəcər, Şuşa, Xocalı, Laçın, Ağdam, Ağdərə, Qubadlı, Zəngilan işğal altındadır.**



23 iyul 1993-cü il... Ağdam bu tarixdə işğal olunub. Mən Ağdamı görməmişəm. Ağdam haqqında onu görənlərin söhbətini, sözünü dinləmişəm.

Ağdamın və digər itirilmiş yurdlarımızın ağrısını yaşamaq üçün o yerlərdə doğulmaq şərt deyil. Əgər bu gün içimizdəki Qarabağ ağrısı ilə yanırıqsa, bizi Dərbənd, Təbriz, Borçalı, İrəvan yarası sızladırsa, deməli, qovuşmaq, yenidən bir olmaq ümidimiz ölməyib.

"Ağdamsızlığ"a köklənmişdim ki, 1988-ci il deportasiyasından sonra Bakıda məskunlaşmış əməkdaşımız telefonunda kəndlərinin 1998-ci ildə çəkilmiş videogörüntüsünü göstərdi. Titrək səslə: "Bax, bura bizim kənddir, burda da babamın qəbridir...," - deyib susdu. İllərdir ziyarətinə gedə bilmədiyi əzizlərinin məzarı da düşmüşdü o videogörüntüdə. Bir yerdə izlədik o çəkilişi. İzlədikcə az qala ürəyinin yerindən çıxacağını hiss edirdim. Gözləri dolmuşdu. Vətən həsrəti, yurd həsrəti qəhərdən düyünlənib boğazında qalmışdı. Özünü güclə saxlamışdı. Bəlkə də hönkürüb ağlayacaqdı. Onun həsrət dolu baxışlarından hər şeyi aydın görmək, hiss etmək olurdu. Uşaqlıq xatirələrini, xoş anlarını məcburən qoyub gəldiyi kəndə indi həsrətlə baxır, yenidən orada olmaq arzusuyla yaşayırdı. Doğma el-obalarından ilk onlar qovulmuşdu...

Bizi həmişə təkləyiblər. Səsimizi çıxarmağa, haqqımızı tələb etməyə qoymayıblar. Və illərdir ki, ağdamlıların gözünə vətənsizlikdən ağ damır. Ağdam həsrətilə dünyasını dəyişənlərə qara çadırlar qurulur.

Qarabağ Azərbaycanın nəfəsidir. Biz onsuz yaşaya bilmərik. Sülh üçün sözün bitdiyi anda Azərbaycan əsgəri, biz hamımız Qarabağımızın, elə "Qarabağın bəy otağı" olan Ağdamın azad edilməsi üçün müqəddəs savaşa girməliyik...

***Ruhiyyə Əliyeva,***
***polis baş leytenantı***

## ƏMƏLİYYAT UĞURLA NƏTİCƏLƏNDİ

İyulun 20-də saat 2 radələrində Şəmkir rayonunun Dəllər Cırdaxan kəndində yaşayan qadının evinə girmiş həmkəndlisinin onu döyərək, hədə-qorxu gəlib 300 manat pul və qızıl-zinət əşyaları tələb etməsi barədə Rayon Polis Şöbəsinə müraciət daxil olmuşdur.

Dərhal başlanılan əməliyyat tədbirləri nəticəsində hədə-qorxu ilə tələb etməkdə şübhəli bilinən kənd sakini C. Hüseynov saxlanılmışdır.

Faktla əlaqədar Cinayət Məcəlləsinin 182-ci maddəsi ilə (Hədə-qorxu ilə tələb etmə) cinayət işi başlanmışdır.

*****

***Saatlı RPŞ əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində iyulun 15-də şəhər sakini M.İbrahimova bıçaqla xəsarət yetirib hadisə yerini tərk etmiş R.Şıxəliyev saxlanılmışdır. Araşdırmalarla onun Cinayət Məcəlləsinin 306-cı maddəsi (Məhkəmənin hökmünü, qərarını, yaxud digər aktını icra etməmə) ilə axtarışda olması da müəyyən edilmişdir.***

*****

Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində Naftalan şəhər sakini E.Şirəliyevin və Yevlax rayon sakini R. Bayramovun paytaxtın Nizami rayonu ərazisində kirəyədə yaşadıqları mənzilə baxış zamanı oradan "STRAŞ RS-22" markalı tapança, 20 ədəd patron və 180 qrama yaxın marixuana aşkar edilərək götürülmüşdür.

*****

***Baş Narkotiklərlə Mübarizə İdarəsinin Qərb Bölgəsində Regional Şöbəsi əməkdaşlarının daxil olmuş məlumat əsasında Yevlax rayonu ərazisində keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli Havarlı kənd sakini Ş.Tağıyevə məxsus həyətyanı sahədən kultivasiya yolu ilə yetişdirilmiş 107 ədəd çətənə kolu və 9 qramdan artıq marixuana aşkar edilərək götürülmüşdür.***

*****

Xəzər RPİ 2-ci PŞ əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş Ə.Vəliyevin idarə etdiyi "Ford" markalı avtomobilə baxış zamanı oradan lüləsi və qundağı kəsilmiş ov tüfəngi və 4 ədəd patron aşkar edilərək götürülmüşdür.

*****

***Baş Narkotiklərlə Mübarizə İdarəsinin Cənub Bölgəsində Regional Şöbəsinin əməkdaşları Yardımlı rayonu ərazisində keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən rayon sakini C.Mirxanlı saxlamışlar. Şəxsi axtarış zamanı onun üzərində 305 qram heroin aşkar edilmişdir.***

***Onun evinə baxış zamanı isə əlavə olaraq 8 kiloqram 140 qram heroin götürülmüşdür.***

# *Məqsədiniz hədəfinizi müəyyənləşdirir*



**Məqsəd-subyektin şüurlu sürətdə can atdığı real və ya ideal zirvə, prosesin hərəkət etdiyi son nəticədir. Məqsədinizi müəyyənləşdirmək vacib bir dönüş nöqtəsidir və həyatınızda çox güclü rola malikdir. Amma bu, tərifi asanlıqla veriləcək bir ifadə deyil. Həyatınızı nə etdiyinizi qavrayaraq yaşadığınızda, o sizin üçün daha çox məna kəsb edir və uğur sizə daha da yaxınlaşır. Gəlin bu mövzuda sitatlara nəzər yetirək.**

1."Qazanmaq üçün bir keyfiyyətə mütləq malik olmalısınız. Bu keyfiyyət məqsədin müəyyən edilməsidir, yəni nə istədiyinizi bilmək və ona sahib olmaq üçün alışıb yanmaq." **-Napoleon Hil**

2."İnsanın həyatda məqsədinin olması çox vacibdir. Bu məqsəd həm faydalı, həm də yaxşı olmalıdır." – **Dalay Lama**

3."Məqsəd müəyyən hədəfə çatmaq üçün yox, həmin məqsədə aparan yoldakı hər addımdan zövq almaq üçündür." – **Veyn Dayer**

4."Müvəffəqiyyət nədir? Düşünürəm ki, məşğul olduğunuz işə qarşı həvəsinizin olması; amma sadəcə bunun kifayət olmadığını bilib çox çalışmaq və qarşınıza məqsəd qoymaqdır." – **Marqaret Tetçer**

5."Qazananlar aydın məqsədləri olanlardır" – **Denis Veitley**

6."Məqsədinizin nə olduğunu bilmirsinizə, o zaman arzularınız haqqında düşünün. Arzunuz sizi məqsədinizə yönləndirəcək." – **Tomas Dekster Ceyk**

7."Həyatın buludludursa və həyatın gedişatından uzaqdasansa, bir müddət inamına görə hərəkət et. Sonunda biləcəksən ki, daxilindəki yönləndirmə sisteminə güvəndiyin hər an, doğrulara daha da yaxınlaşmısan." – **Marta Bek**

8."Həyat pis vəziyyətlərə görə yox, məqsəd azlığına görə dözülməz olur." – **Viktor Frankl**

9."Həyatınızdakı ən vacib iki gün: doğulduğunuz və niyə doğulduğunuzu anladığınız gündür." – **Mark Tven**

10."Uğurun digər adı — müəyyən məqsədə çatmaq üçün çalışmaqdır." – **Ralf Uold Emerson**

11."Hər insan vacibdir. Hər insanın rolu fərqlidir. Hər insan fərq yaradır." — **Ceyn Qudoll**

## MARAQ DÜNYASI

### *KORONAVİRUSLA MÜBARİZƏ ÜÇÜN HAZIRLANMIŞ BOYUNBAĞI*

Koronavirusun insandan insana keçməsinin qarşısını alan İndoneziya Səhiyyənin İnkişafı və Tədqiqatlar Milli Agentliyinin mütəxəssisləri 700-dən artıq evkalipt növünü birləşdirərək koronavirusun insandan insana keçməsinin qarşısını alan boyunbağı düzəldiblər. Sınaqlar göstərir ki, belə bir bitki birləşməsinin təqribən 30 dəqiqə gəzdirilməsi 80 faiz virusların, o cümlədən COVID-19-un məhvinə səbəb olur.

Evkaliptdən hazırlanmış boyunbağı koronavirus aşkar edilən bir çox xəstələrin müalicəsi zamanı istifadə edilib və bu zaman müsbət dəyişikliklər müşahidə olunub.

Son məlumatlara görə, İndoneziyada 63 mindən çox koronavirusa yoluxan var. Onların 3 mindən çoxu həyatını itirib. Bu göstəricilərə görə İndoneziya Cənub-Şərqi Asiyada birinci yeri tutur.

### *İPS HÜCEYRƏLƏRİ VASİTƏSİLƏ UĞURLU KARDİOLOJİ ƏMƏLİYYAT*

Osaka Universitetinin professoru Yoşiki Savanın rəhbərlik etdiyi mütəxəssislər qrupu İPS hüceyrələrindən istifadə etməklə insanın ürək əzələsinin toxumalarını yaradıb. Bu, dünyada ilk belə kardiocərrahi əməliyyat hesab olunur. Həmin qrup kəskin ürək xəstəliyi olan pasiyentlər üçün xəstə orqana alimlər tərəfindən yaradılmış əzələ toxumasının yerləşdirilməsini nəzərdə tutan müalicə üsulu tətbiq edib. Həkimlərin rəyinə görə, üzərində əməliyyat aparılan xəstənin terapiya yolu ilə müalicəsi mümkün deyildi. Onun yaşı və cinsi barədə əlavə məlumat verilmir.



### *"ƏYRİ EV"*

Dünyanın qeyri-adi memarlıq abidələrindən biri İngiltərədədir. "Əyri ev" adlanan bu abidə (The Crooked House) 1765-ci ildə tikilib. XIX əsrin əvvəllərində bu ərazidə dağ-mədən sənayesi səbəbindən binanın bir tərəfi əyilib. Sonralar bu evi "Sedan House" adlandırıblar. ("Sedan" yerli dialektdə əyri mənasını verir). Ev 1940-cı illərdə təhlükəli olaraq qeydə alınıb və məhv olunması planlaşdırılıb. Lakin "Wolverhampton and Dudley Breweries" bu evi alaraq evin əyilən hissəsindən dayaq kimi divar düzəldib.

✦✦✦✦✦

Dünyada maraqlı abidələrdən biri də İsveçdə inşa olunan dönən bədəni xatırladan göydələndir. Bu göydələn Skandinaviyada ən hündür binadır. Binanın dizaynı ispan memarı, struktur mühəndisi və rəssamı Santiaqo Kalatrava tərəfindən verilib. Rəsmi açılışı 2005-ci il avqustun 27-də olub. Binanın hündürlüyü 190 metr olmaqla 54 mərtəbə və 147 mənzildən ibarətdir. Bina 2005-ci ildə "Qızıl Emporis Göydələn" mükafatına layiq görülüb.

✦✦✦✦✦

ABŞ-da inşa olunan "Ayaqqabı evi"-nin dizaynı 1948-ci ildə çəkməçi Mahlon Haines tərəfindən təklif edilib. Evin hündürlüyü 7,6 metr olmaqla 5 mərtəbədən ibarətdir. Çəkməçi öz düzəltdiyi çəkməni memara göstərərək onun kimi ev tikməyini xahiş edib. Evin qonaq otağı barmaqlarda, mətbəx ayaqqabının daban hissəsində, yataq otaqları isə topuq hissəsində yerləşir.

***Ruhiyyə Əliyeva***

## İyul ayının 15-dən 21-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 140 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 14 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 167, o cümlədən borclu şəxs qismində axtarışda olan 117 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 14 ağır yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 15 nəfər ölmüş, 7 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 72 fakt müəyyən edilmişdir.

## DÜNYAYA PƏNCƏRƏ

ABŞ Federal Təhqiqat Bürosu koronavirusa qarşı saxta anticisimlər yayıldığını bəyan edib.

Anticisimlər üçün götürülən əsl testlər insanın bundan əvvəl koronavirusa yoluxub-yoluxmadığını təyin edir. Bununla belə, ABŞ-da saxta testlər aparan dələduz qrupların sayı artıb. Onlar nəinki saxta nəticələr verir, həm də saxta testlərdən keçən insanların şəxsi məlumatlarını oğurlayırlar. Bu, adətən internet vasitəsilə həyata keçirilir: insanlar öz analizlərini və şəxsi məlumatlarını göndərir və bir neçə gün ərzində cavab alırlar. Bundan əlavə, fırıldaqçılar gələcəkdə istifadə edə biləcəkləri tibbi sığorta, maliyyə və şəxsi məlumatları da əldə etməyə çalışırlar.

FTB ictimaiyyəti anticisim testləri üçün reklam olunan bu və ya digər dərman vasitələrindən istifadə etməzdən əvvəl Federal İdarə tərəfindən onların təsdiqlənməsinə aid məlumatları öyrənməyə çağırır. Bu xidmətlər tez-tez sosial şəbəkələrdə reklam olunur və ya adətən naməlum mənbələrdən "pulsuz testlər" təklif edən marketoloqlar tərəfindən elektron ünvana gəlir.

FTB bu məlumatları Federal İdarənin dərman vasitələri üzrə saytında yoxlamağı, həkimlə məsləhətləşməyi, yaxud da analiz vermək üçün tanınmış laboratoriya və ya xəstəxanaya müraciət etməyi təklif edir.

Milli Təhlükəsizlik Nazirliyi yanında Daxili Təhlükəsizlik Xidməti bundan əvvəl COVID-19 üçün 885-dən çox saxta test, qadağan olunmuş narkotik maddələr və saxta maskalar aşkarlayıb.

*****

Hindistanın Daxili İşlər Nazirliyi qurumun bütün strukturlarına, o cümlədən polislərə "Facebook" sosial şəbəkəsindən istifadəni qadağan edib. Bu barədə Hindistan Daxili İşlər Nazirliyinin direktivində deyilir.

"Qadağa Nazirliyin bütün strukturlarına aiddir, çünki onlar adətən silahlı qüvvələrimizlə sıx əlaqədə olurlar. Hindistan özü "Facebook" və ya "Instagram" kimi sosial şəbəkələrə malik olmalıdır ki, onlara heç bir xarici ölkə daxil ola bilməsin", - deyə qurumun direktivində bildirilir.

Hindistanlı mütəxəssislər artıq sosial şəbəkələrin yerli analoqunun hazırlanması üçün çalışmalara başlayıb.

*****

"Twitter" sosial şəbəkəsinin bir sıra istifadəçiləri istismardan çıxarılmış polis kameralarını aldıqdan sonra gözlənilməz sürprizlə üzləşiblər. Belə ki, kameraların əksəriyyətində rəsmi şəkildə məxfi sayılan və yayılmasına icazə verilməyən görüntülər olub.

Bütün bunlar "Dotslash" ləqəbli istifadəçinin eksperimentindən sonra başlayıb. O, belə kameraların birini internet vasitəsilə alıb. Evdə yoxlayarkən Arizona polislərinin birinin formasına bərkidilmiş kameranın yaddaş kartında çoxlu video görüb. Üstəlik faylların açılması üçün heç bir parol yazmaq lazım olmayıb. Bundan sonra sosial şəbəkənin digər istifadəçiləri də polislərin köhnə kameralarını sifariş verməyə başlayıblar. Rəsmi şəkildə məxfi sayılan materialların necə əlçatan olması insanları təəccübləndirib.

Kadrlarda polislərin gündəlik iş rejiminin müxtəlif anları əks olunub: yollarda saxlamalar, satıcıların çağırışına getmələr, şikayətlər əsasında evlərə yollanmalar və sair.

Sosial şəbəkə istifadəçiləri qanunu pozmamaq üçün videolardan ancaq skrinşotlar dərc ediblər. Onlar kameraları yenidən hüquq mühafizə orqanlarına verməyi düşünürlər.

***Natiq Cavadov***

MÜBARİZ KEŞİKDƏ
qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
REDAKTOR:
HAFİZ TƏMİROV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 7356
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:00
Qiyməti 40 qəpik